**AZƏRBAYCAN RESPUBLİKASININ TARİF (QİYMƏT) ŞURASI**

**QƏRAR № 1**

**Bakı şəhəri, 31 yanvar 2023-cü il**

# İctimai nəqliyyatda sərnişindaşıma xidmətləri üzrə tariflərin tənzimlənməsi barədə

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə"yə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 30 dekabr tarixli 247 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi Qaydaları"na uyğun olaraq Tarif (qiymət) Şurası

**QƏRARA ALIR**:

1. Müntəzəm şəhərdaxili, şəhərətrafı və qəsəbələrarası avtobus marşrutlarında sərnişindaşıma xidmətlərinin tariflərinin yuxarı hədləri təsdiq edilsin.

2. Metro nəqliyyatında sərnişindaşıma xidmətinin tarifi bir gediş üzrə 40 qəpik təsdiq edilsin.

3. Bakı-Sumqayıt (Sumqayıt-Bakı) avtobus marşrutlarında sərnişindaşıma xidmətinin tarifi bir gediş üzrə 60 qəpik təsdiq edilsin.

4. Bakı-Sumqayıt avtobus marşrutunda sərnişindaşıma xidməti üzrə tarif Bakı şəhərindən Sumqayıt şəhərinə qədər olan məsafəni əhatə edir və Sumqayıt şəhərinin daxili marşrutları üzrə hərəkət davam etdikdə, həmin tarifə müntəzəm şəhərdaxili avtobus marşrutları üçün təsdiq olunan tarif əlavə edilsin.

5. Müntəzəm şəhərlərarası avtobus marşrutlarında sərnişindaşıma xidməti üzrə tarifin yuxarı həddi bir kilometr üçün 3,0 qəpik təsdiq edilsin.

6. Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının "İctimai nəqliyyatda sərnişindaşıma xidmətləri üzrə tariflərin tənzimlənməsi barədə" 2018-ci il 30 iyul tarixli 7 nömrəli Qərarı ləğv edilsin.

7. Bu Qərar 2023-cü il 3 fevral tarixindən qüvvəyə minir.

**Azərbaycan Respublikası**

**Tarif (qiymət) Şurasının sədri** **Mikayıl Cabbarov**

*Azərbaycan Respublikası*
*Tarif (qiymət) Şurasının*
*2023-cü il 31 yanvar tarixli*
*1 nömrəli Qərarı ilə*
*təsdiq edilmişdir.*

## Ölkə üzrə müntəzəm şəhərdaxili, şəhərətrafı və qəsəbələrarası avtobus marşrutlarında sərnişindaşıma xidmətlərinin tariflərinin yuxarı hədləri

| № | Marşrut | Məsafə (dövrün uzunluğunun yarısı) | Tarif (manat) |
|---|---|---|---|
| I | II | III | IV |
| 1. | Şəhərdaxili | məsafədən asılı olmayaraq | 0,40 |
| 2. | Şəhərətrafı və qəsəbələrarası | 15 km-dək (15 km daxil olmaqla) | 0,40 |
| | | 15 km-dən 30 km-dək (30 km daxil olmaqla) | 0,50 |
| | | 30 km-dən 40 km-dək (40 km daxil olmaqla) | 0,60 |
| | | 40 km-dən 45 km-dək (45 km daxil olmaqla) | 0,70 |
| | | 45 km-dən 50 km-dək (50 km daxil olmaqla) | 0,90 |
| | | 50 km-dən yuxarı | 1,00 |

**Qeyd:** Müntəzəm şəhərətrafı və qəsəbələrarası avtobus marşrutlarında şəhərdaxili və ya qəsəbədaxili hərəkət edən sərnişinlər üçün bir gediş üzrə tarifin yuxarı həddi 40 qəpik, həmin marşrutlarda yaşayış məntəqələri arası hərəkət üçün tarifin yuxarı həddi müəyyən edilmiş məsafələrdən asılı olaraq tətbiq edilir.